Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası



Ələviyyə Babayevanın 95 illik yubileyi münasibəti ilə

# *Zərif duyğuların tədqiqatçısı Ələviyyə Babayeva*

Bakı-2016

**Tərtibçi:** **Ruhiyyə Məmmədli**
**Sevil Əhmədova**

**Redaktor və buraxılışa məsul** **Şəhla Qəmbərova**
**Əməkdar Mədəniyyət işçisi**

**Zərif duyğuların tədqiqatçısı Ələviyyə Babayeva-** Ələviyyə Babayevanın 95 illik yubileyi münasibətilə respublika uşaq kitabxanaları üçün hazırlanmış metodik vəsait / tərt. ed. Ruhiyyə Məmmədli, red. və burax. məsul Şəhla Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2016.- 31s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası 2016**

## Tərtibçidən

Bu il nasir, tərcüməçi, publisist, əməkdar mədəniyyət işçisi, Prezident təqaüdçüsü Ələviyyə Babayevanın 95 illik yubileyidir. Ələviyyə Babayeva ötən əsrdən üzü bəri ədəbiyyatımıza bədii töhfələrini bağışlayan nasir xanımlarımızdandır. Ələviyyə xanım insan mənəviyyatından, arzu və istəklərindən, ömrü boyu üzləşdiyi çətinlikdən, mübarizə dolu həyatından təsirli, yaddaqalan, oxucunu çəkən, düşündürən bədii əsərlər yazan, 94 illik ömrünün 74 ilini ədəbiyyata bağlayan çox məhsuldar, istedadlı, təvazökar və cəfakeş yazıçı idi. Sevimli yazıçımız ömrü boyu ədəbiyyata təmənnasız xidmət etməyi özünün vətəndaşlıq borcu sayıb. Öz taleyi də qəhrəmanlarının həyatına bənzəyən Ələviyyə Babayevanın heç kimdən, heç hardan umacağı olmayıb. O, 63-dən çox kitabın müəllifidir. Hekayə və povestlərdən ibarət olan bu nəsr nümunələrinin içində 9 roman yer tutub. Əsasən, böyüklər üçün yazan müəllif uşaqları da yaddan çıxarmamışdır.Yazıçının uşaqlar üçün, uşaqların həyatından yazdığı "Mənim müəlliməm", "Qızılı buzov", "Hekayələr", "Tək ağac", "Kənd yollarında", "Tut ağacı", "Sehirli pillələr", "Hörüklər", "Payızda", "Arıxanada", "Mən tək deyiləm", "Yarpaqlar nə haqda pıçıldaşırdı", "Yenə bahardı", "Ayran" hekayələr və povestlər kitabları və multfilmləri balaca oxucuların çoxdan rəğbətini qazanmışdır. Onun "Cırtdan şəhərdən qaçıb" povestini oxucularımız həmişə sevərək oxuyurlar. F.Köçərli adına RUK-nın Elmi-metodika şöbəsi olaraq, yazıçının 95 illik yubileyi münasibətilə bu vəsaiti hazırlamağı özümüzə borc bildik. Vəsait iki hissədən ibarətdir. I hissədə yazıçının həyat və yaradıcılığından, II hissədə isə kitabxanada yubiliyarla bağlı təşkil olunan tədbirlərdən söhbət açılır.

## *Ədəbiyyatımıza bədii töhfələr bağışlayan nasir xanımımız Ələviyyə Babayeva*

“Heydər Əliyev mənim yaradıcılığımı, mərdliyimi, cəsarətimi qiymətləndirirdi. O, həm də əsərlərimi oxuyurdu və bəyənirdi. Heydər Əliyev Azərbaycan yazıçılarını çox yaxşı tanıyırdı”. Ələviyyə Babayevanın haqqında Ulu öndər tərəfindən söylənən bu etiraf çox dəyərlərdən və mətləblərdən xəbər verir. Həm ümummilli liderin Azərbaycan ədəbiyyatına olan diqqətindən, himayəsindən, həm də bu qayğıdan fərəhlənən qələm sahiblərinin qədirbilənliyindən.

Ələviyyə Babayeva 1921-ci il avqustun 12-də Bakıda anadan olub. Orta məktəbi bitirdikdən sonra ADU-nun (BDU) fılologiya fakültəsində təhsil alıb. Ədəbi fəaliyyətə 1936-cı ildə “Ədəbiyyat qəzeti”ndə dərc olunmuş "İki həyat" adlı hekayəsi ilə başlayıb. Hekayə, povest və romanlar yazmaqla yanaşı, müasir rus ədəbiyyatından tərcümələr edib. “Azərbaycan qadını” jurnalında məsul katib, “Gənclik” nəşriyyatında müasir ədəbiyyat şöbəsinin müdiri, sonra baş redaktor olub. Ədəbiyyatımızın görkəmli nümayəndələrindən biri olan Ələviyyə Babayeva sovet dönəmində təkcə Azərbaycanda deyil, müttəfiq respublikalarda da yaxşı tanınırdı və sevilirdi. Onun kitabları bir neçə xarici ölkədə çap edilmişdi. Ələviyyə xanım 14 yaşında “Keşiş” hekayəsini dərc etdirmiş, bununla da böyük ədəbiyyata gedən yolun ardıcıl və mükəmməl yolçularından birinə çevrilmişdir.

İstedadlı qadın yazıçılarımızdan olan Ələviyyə Babayeva çoxsaylı roman, povest, hekayələr müəllifidir. Ələviyyə Babayeva gənc yaşlarından müasir rus və xarici ölkə ədəbiyyatından da tərcümələr edirdi. L.Tolstoy, İ.Turgenev, A.Çexov, M.Qorki,

V.Korolenko, G.Paustovski, A.Qaydar, V.Byankin, V.Astafyev, V.Ponova, Y.Çaruşin, Y.Sotnik, A.Zegeres (alman dilindən) və başqalarının əsərləri onun tərcüməsində kütləvi tirajla çap olunmuşdur.

Onun imzası 1936-cı ildə çap etdirdiyi "İki həyat" hekayəsilə tanınmağa başlandı. Müəllifin "Mənim müəllimim" adlı ilk kitabı isə 1950-ci ildə "Uşaq gənc nəşr" də çap olundu. Sonra müəllifin birbirinin ardınca "Hekayələr", "Tək ağac", "Kənd yolları", "Payızda", "Yenə bahardı", "Tut ağacı", "Süsən sünbül", "Hörüklər", "Adamlar və talelər", "Hardasan, dost, harda", "Əlvida", "Dəli Sona", "Son döngə" və s. əsərləri işıq üzü gördü. Uzun illər "Azərbaycan qadını" jurnalında, "Gənclik" nəşriyyatında çalışan Ələviyyə Babayeva Moskvada Azərbaycan ədəbiyyatı ongünlüyündə, həmçinin başqa ölkələrdə keçirilən ədəbi tədbirlərdə fəal iştirak edirdi. Yazıçı bir müddət də Azərbaycan Yazıçılar Birliyində tərcümə bölməsinin rəhbəri olmuşdur. Bu, əslində, yazıçının görünən tərəfləridir, yəni bioqrafiyasında yer almış məlumatlardır.

Əslində, Ələviyyə Babayeva 1937-ci ilin dəhşətli repressiyalarını yeniyetməlik çağlarından canında yaşadan, həyatın bir çox çətinlikləri, müsibətləri ilə üz-üzə dayanan bir insan olub. Orta məktəbdə oxuduğu illərdə Ələviyyə Babayeva şeir yazırmış. Bəlkə elə yazıçının nəsrinin dili buna görə də şirin və cəlbedicidir. Hətta o, orta məktəbi bitirdikdən sonra həkim olmaq istəyi ilə Tibb İnstitutuna daxil olub. Üçüncü kursda anlayıb ki, onun həyatı ədəbiyyatla bağlıdır. Bu səbəbdən də ADU-nun filologiya fakültəsinə üz tutub.1950-ci ildə çap edilmiş ilk kitabı "Mənim müəlliməm" adlanır. Sonralar bir-birinin ardınca işıq üzü görən əsərləri Ələviyyə Babayevaya

oxucu rəğbəti və məhəbbəti qazandırıb. Görkəmli yazıçının ədəbiyyatımıza bəxş etdiyi əsərlərinin sayı çoxdur. Dövlət müstəqilliyimizi qazandıqdan sonra buna ən çox sevinən qələm əhlindən biri kimi o, öz yaradıcılığında növbəti mərhələyə başlamışdır. 1964-cü ildə yazıçının işıq üzü görən "Kölgə" povesti də heyranlıqla qarşılanmışdır. Ələviyyə Babayevanın kitabları Rusiyada, Çində, Fransada, İranda, Yaponiyada, Türkiyədə, İsraildə və başqa ölkələrdə çap edilirdi.

Həmkarları söyləyirlər ki, Ələviyyə xanımın zəhmətkeşliyinə həmişə qibtə etmək olar. Ələviyyə xanım böyük bir romanın üzünü bəlkə bir neçə dəfə köçürüb, amma yorulmayıb, bezməyib. Bu cəfakeşliyinin müqabilində umacaqsız yaşayıb. Həmişə də nikbinliklə söyləyib: "Bir mənəm, bir də 63 kitabım və dostlarım". Qəribə etirafdır! Ələviyyə Babayeva təkcə bədii yaradıcılıqla deyil, uzun illər tərcümə ilə, naşirliklə, jurnalistliklə məşğul olmuşdur.

Vaxtilə Ələviyyə Babayeva Çingiz Fərəcovun həyatı ilə bağlı "Yanan su" əsərini də qələmə alıb. Gəncləri həmişə ürəkdən sevən Ələviyyə Babayeva istər jurnalda işlədiyi, istərsə də "Gənclik" nəşriyyatında baş redaktor olduğu dövrdə hər zaman istedadlıların əsərlərinin çap edilməsinə, kitablarının plana salınmasına çalışıb. O, pedaqoji sahədə fəaliyyət göstərməsə də, əsl pedaqoq ustalığı ilə jurnalist və nasir gənclərin yetişməsində köməyini əsirgəməyib. Bu gün də Ələviyyə Babayevanın xidmətini məhəbbətlə xatırlayan neçə-neçə qələm sahibi var. Onun inadlı zəhmətkeşliyinə həmişə qibtə etmək olar. Ələviyyə xanım yeri gələndə çoxunun nöqsanını üzə deməyi bacaran, yalnız ədəbiyyat

naminə yaşayıb-yaradan, heç vaxt "mənəmlik" iddiasında olmayan, "mən ədəbiyyatın sıra nəfəriyəm", - deyə öyünən bir yazıçıdır, ədəbiyyatımızın bu qəribə pərvanəsi!

Kitabxanada ilk əvvəl yubiliyar yazıçımız Ələviyyə Babayevadan bəhs edən **foto sərgi, kitab sərgisi** hazırlamaq olar. Ələviyyə xanımın həyat və yaradıcılığından bəhs edən sərgi müxtəlif başlıqlar altında təşkil edilə bilər. Məsələn: "Ədəbiyyatımızın pərvanəsi", "Bəlkə sabah olmadı", "Yüksək vüsətli romanlar banisi Ələviyyə Babayeva", "Böyük ədəbiyyata gedən yolun ardıcıl və mükəmməl yolçusu Ələviyyə Babayeva", "Ədəbiyyatımıza bədii töhfələr bağışlayan nasir xanımımız Ələviyyə Babayeva", "Bəhrəli ömür", "Sevimli yazıçımız Ələviyyə Babayeva", "Zərif duyğuların tədqiqatçısı Ələviyyə Babayeva", "Yüksək vüsətli romanlar banisi Ələviyyə Babayeva", "İnsan qəlbini, mənəviyyatını əsərlərində işıqlandıran sevilən nasir Ələviyyə Babayeva", "Müasir dövrünün həqiqətlərini, reallığını doğru-dürüst əks etdirən nasir Ələviyyə Babayeva", "Geniş dünyagörüşü, intellektual səviyyəsi, ən başlıcası böyük ürək sahibi olan müəllif Ələviyyə Babayeva", "Ələviyyə Babayevanın romanları milli səviyyəmizdir", "Zamanın tarixi-ədəbi salnaməsini yaradan yazıçı Ələviyyə Babayeva" və s.

Sərgidə yazıçının kitabları, müxtəlif mətbuat səhifələrində onun haqqında nəşr olunmuş məqalələr, onun fotoları nümayiş olunur. Sərgi təşkili zamanı görkəmli şəxsiyyətlərin Ələviyyə Babayeva haqqında söylədiyi kəlamlardan da istifadə edilir.

İndi isə "Yüksək vüsətli romanlar banisi Ələviyyə Babayeva" adlı kitab sərgisinin nümunəsini veririk.

1.Başlıq: “Yüksək vüsətli romanlar banisi Ələviyyə Babayeva”

2. Kitablarının nümayişi.

3. Görkəmli insanların Ələviyyə babayeva haqqında söylədikləri sitatlar.

4. Dövrü mətbuatda nəşr olunan məqalələrin kartotekası.

5. Əsərlərinə çəkilmiş rəsm əsərləri.


















## *Görkəmli şəxsiyyətlərin Ələviyyə Babayeva haqqında söylədikləri:*

Ələviyyə Babayevanın mövzu dairəsi geniş, əhatəlidir. Onun dolğun məzmunlu və maraqlı bədii əsərlərində uşaq təxəyyülünə uyğun şəkildə qələmə aldığı həyat hadisələri kiçik yaşlı oxucunun dünyagörüşünə faydalı təsir göstərir, onlarda gözəl hisslər, səmimi duyğular, vətənpərvərlik hissləri aşılayır.

**Qara Namazov,**
*Professor*

Ələviyyə Babayeva balalarımızın sevincinə səbəb olan kitabların önündə həmişə yaşıl işıq yandıranlardan biri olmuşdur.

**Rafiq Yusifoğlu,**
*Professor*

Ələviyyə Babayeva dərəcəsi çətin ölçülə bilən zəhmətlərə qatlaşan, ona görə də sevilən sənətkardır. Onun inadlı zəhmətkeşliyinə həmişə qibtə etmək olar. Ələviyyə Babayeva yeganə yazıçıdır ki, əlinə qələm aldığı gündən öz populyarlığını qoruya bilib.

**Çingiz Fərəcov,**
*İctimai xadim*

Elmi-bədii ədəbiyyat əsəri necə olar? Əgər məndən bunu soruşsaydılar, deyərdim: “Gedin Ələviyyənin əsərlərini oxuyun”.

**Əkrəm Cəfər,**
*Ədəbiyyatşünas alim*

Ələviyyə Babayevanın romanları milli səviyyəmizdir. Bu əsərlərdə Şərq mədəniyyəti ilə Qərb mədəniyyətinin sintezi açıq-aydın hiss olunur. Ömrünü ictimai həyata, ədəbiyyata, yaradıcılığa, bədii tərcüməyə bağlayan Ələviyyə Babayevanı həmkarlarından fərqləndirən çoxlu məziyyəti var. Mərdanəliyi, cəsarəti, məhsuldarlığı.

**Flora Xəlilzadə,**
*Əməkdar jurnalist*

Ələviyyə xanımın yaradıcılıq yoluna nəzər saldıqda onun əsər üzərində nə qədər səbr, təmkinlə işlənməsinə heyran olursan. Ələviyyə Babayeva ömrü boyu ədəbiyyata təmənnasız xidmət etməyi özünün vətəndaşlıq borcu sayıb.

**Süleyman Vəliyev,**
*Əməkdar incəsənət xadimi*

Mən Ələviyyə Babayevanın hekayələrini oxumuşam. Hekayələr mənə çox maraqlı təsir bağışlayıb. O, gələcəyin böyük romançısı olacaq.

**Suat Dərviş,**
*Türk yazıçısı*

1968- ci ildə Bolqarıstanda istirahətdə olduğum zaman Ələviyyə Babayevanın "Kölgə" povestini oxudum, yüksək qiymət verdim, dəyərləndirdim. Ələviyyə xanımın yazar əlini hörmətlə sıxıram.

**Tahir Kamal,**
*Türk yazıçısı*

Kitabxanada yazıçı Ələviyyə Babayevanın balaca fidan balalar üçün qələmə aldığı “Cırtdan şəhərdən qaçıb” kitabı əsasında “Nağıl saatı” da keçirmək olar. Kitaba sevimli yazıçımız Ələviyyə Babayevanın “Cırtdan şəhərdən qaçıb”, “Eşit, inanma”, “Dalaşdılar, barışdılar”, “Fındıq” hekayələri, “Kökə”, “Sən demə, Siçandan güclüsü yox imiş”, “Bülbülün nəğməsi”, “Kor kirpi ilə kar kirpi”, “Yeni il nağılı” daxil edilmişdir. İnsanlara məhəbbət, böyüklərə hörmət, dostluğa sədaqət, heyvanlara və təbiətə qayğı kimi müsbət keyfiyyətlər aşılayan bu kitab kiçik yaşlı oxucular üçün çox maraqlıdır. Adları çəkilən hekayələri, nağılları “Nağıl otağı”nda uşaqlar üçün səhnələşdirmək, səhərciklər təşkil etmək, kiçik yaşlı uşaqlar üçün isə hekayələrin ucadan oxusunu keçirmək olar. Həmçinin kitabxanaçılara kiçik yaşlı oxucularla Ə.Babayevanın qısaca həyat və fəaliyyiyyəti haqqında, onun “Sehrli pillələr”, “Yenə bahardı”, “Mən tək deyiləm”, “Süsən sünbül” və s. kitablarındakı hekayələrdən ucadan oxu və söhbətlər təşkil etmələri məsləhət görülür. Gəlin Nağıl otağında “Sən demə, siçandan güclüsü yox imiş” nağılını səhnələşdirək.

***Səhnəcik***

*Bir qrup kiçik yaşlı uşaqlar nağıla uyğun paltarlarını geyinib səhnəcik göstərirlər. Ilk öncə səhnə dekorasiyalarla bəzədilir. Tamaşada aparıcı, Siçan, Bulud, Külək, Kotan, Öküzlər, Ağac kökü rollarının ifaçıları iştirak edirlər.*

***Aparıcı:*** *Biri vardı, biri yoxdu, bir Siçan bəy vardı. Siçan bəy bir gün evlənmək fikrinə düşdü. Siçan bəy çox təkəbbürlü idi. Ona görə çox götür-qoy elədi, özünə layiq bir nişanlı seçə bilmədi. Fikirləşdi ki, gəzsin, dolansın, dünyada ən yüksək rütbə sahibinin*

*qızına elçi düşsün. Fikirləşdi ki, Ay hamıdan yüksəkdir. Buna görə də yığışıb Ayın yanına getdi.*

**Siçan:** Ay qardaş sən çox ucasan, bu dünyada səndən ucası yoxdur. Buna görə də səninlə qohum olmaq istəyirəm.

**Ay:** Uca olmağına ucayam, gecələr mənim gümüşü şüalarım zülmətin bağrını yarır. Bütün dünyanı işığa qərq edir. Amma elə ki, Günəş çıxır, mənim işığım da gücdən düşür. Heç kim məni yada salmır. Günəş batandan sonra dünyanı işıqlandırıram. O məndən güclüdür, o məndən ucadır.

***Aparıcı:*** *Bunu eşitcək Siçan Günəşin yanına getdi.*

**Siçan:** Ey uca Günəş, mən Siçan bəyəm. Ən güclü məxluğun qızına evlənmək istəyirəm. Deyirlər, səndən güclüsü, səndən ucası yoxdur. Qızını mənə verərsənmi?

**Günəş:**Güclü olmağına güclüyəm.Elə ki yerimdən qalxıram, dünyanı bürüyən zülmət qorxumdan qaçıb gizlənir. Ulduzlar, hətta Ayın özü də mənimlə bəhsə girə bilmir.

**Siçan:** Bu lap yaxşı oldu. Deməli mən istədiyimi tapmışam.

***Aparıcı:*** *Günəş ah çəkərək söylədi.*

**Günəş**:Məndən də güclüsü var. Bu da Buluddu. O mənim şüalarımın qabağını kəsir, hərarətimi də, işığımı da söndürür, dünyanı mənim əlimdən alır.

***Aparıcı:*** *Siçan Günəşdən aralanıb, üzünü Buluda tutdu. Bulud Siçanı dinlədi. Rəngi boğulub, üzü tutuldu. Siçan bəy fikirləşdi ki, istədiyimi tapmışan. Bulud hamıdan güclüdür. O, hətta Günəşin qabağını kəsir.*

**Bulud:** Günəş doğru deyir. Elə ki, mən yorğanımı dünyanın üzünə çəkirəm, Günəş solur, qüvvədən düşür. Lakin məndən də güclüsü var. Külək

qəzəblənəndə məni bir anda parçalayır, tikə-tikə doğrayıb səmaya dağıdır. Külək məndən çox güclüdür.
***Aparıcı:*** *Bunu deyib Bulud hönkür-hönkür ağladı.Siçan təngənəfəs özünü Küləyə yetirdi. Birtəhər köynəyinin ətəyini ələ keçirib çığırdı.*
**Siçan:** Ay qardaş, bir ayaq saxla, axı mən səni deyib gəlmişəm.
**Külək:** Tez ol, mətləbini de, tələsirəm vaxtım yoxdur.
**Siçan:** Sən deyirlər günəşdəndə, Aydan da, ulduzlardan da, Buluddan da güclüsən.Buna görə mən sənin qızınla evlənmək, səninlə qohum olmaq istəyirəm.
***Aparıcı:*** *Külək güldü, aşağıda qara torpağı şumlayan öküzləri göstərib dedi:*
**Külək:** O öküzləri görürsən? Bax, onlar məndən güclüdürlər. Səhərdən buynuzlarından tutub ora-bura çəkirəm. Yerə yıxıb işlərinə mane olmaq istəyirəm. Heç veclərinə də deyil.
***Aparıcı:*** *Siçan Küləyin ətəyindən buraxdı, ordanca yerə atıldı, birbaş öküzlərin yanına düşdü*.
**Siçan:** Öküz qardaşlar, işiniz avand olsun. Mən sizin kimi güclüləri yerdə qoyub, güclü dalınca göyə çıxmışam. Deyirlər, dünyada sizin kimi güclü yoxdur.
**Öküzlər:** Güclü olmağına güclüyük. Güclü olmasaydıq bir belə böyük zəmini şumlamağı bizə tapşırardılarmı? Ancaq kotan bizdən də güclüdür. Bir də görürsən kotan ya daşa, ya da ağac kökünə ilişir, onda iki yox, lap dörd öküz də onu çətinliklə çəkir.
***Aparıcı:*** *Siçan üzünü cəld kotana sarı çevirdi.*
**Siçan:** İndi ki, sən öküzlərdən güclüsən, elə gəl səninlə qohum olaq.
**Kotan:** Bu zəhrimara qalmış kök mənim işimə yaman mane olur. Elə ki, dişimə ilişir, qopmaq bilmir.

**Siçan:** Deməli zoğlar səndən güclüdür. Güclü olmasaydı onu asanlıqla qırıb atardın.
**Ağac kökü:** Bilirəm, indi mənimlə qohum olmaq istəyəcəksən. Ancaq bil ki, məndən də güclüsü var. Kotanın qırıb çəkə bilmədiyi, öküzlərin işini çətinləşdirən, insanın zəhmətini artıran bu zoğları görürsən? Nazik olmalarına baxma! Onlar torpağın şirəsini içiblər. Bu zoğları qırmaq o qədər də asan deyil. Ancaq öküzlərin, kotanın çətinliklə gördüyü işi balaca bir siçan asanlıqla görür. Xırdaca dişləri ilə zoğları qırıb tökür.
**Siçan:** Hə, indi bildimki, güclü kimdir! Sən demə, siçandan güclüsü yoxmuş.
***Aparıcı:*** *Bu hadisələrdən sonra siçan balaca bir siçanla evləndi.*
*Tamaşanın sonunda rolları ifa edən uşaqlar alqış sədaları altında səhnədən ayrılırlar.*

**Kitabxanaçı:** Əziz uşaqlar! Ə.Babayevanın nəsrində tərbiyə məsələləri ön planda dayanır. Ələviyyə xanım uşaqlar üçün yazdığı hekayələrində balaca oxucularının maraqlı bədii obrazlarını yaratmağa nail olur. Ələviyyə Babayevanın əsərləri-roman, povest və hekayələri ciddi axtarışların məhsulu kimi oxucuların diqqətini cəlb etmişdir. Bu gün sizinlə “Çörək əhvalatı”, “Dalaşdılar, barışdılar”, “Alapars” hekayələri ətrafında söhbət aparacağıq və söhbətin sonunda siz mənim bu hekayələrdən bəhs edən suallarıma cavab verəcəksiniz. Məsələn, “Dalaşdılar, barışdılar” hekayəsində heç nəyin üstündə dalaşan, sonra peşmançılıq hissi keçirən, özləri də bilmədən barışan Fuadla Elxanın daxili dünyasına nüfuz edilir. Yaxşı cəhətdir ki, müəllif nəsihətçilik yolunu tutmur,

hadisələrin ümumi axarı isə uşağın özünü düşünməyə, yersiz hərəkətlərdən çəkindirməyə səsləyir.

"Alapars" hekayəsində isə ilanların qənimi Alapars haqqında məlumat verilir. Alaparsla ilanın döyüş səhnəsinin təsviri canlıdır. Yaz və yay aylarında günlərini kənddə babasının yanında keçirən uşağın ayrı-ayrı təbiət hadisələrinin sirrini öyrənməyə, bitkiləri tanımağa çalışması da inandırıcı lövhələrlə əks olunub. Hekayə aşağıdakı sözlərlə bitir: "Bu dünyada gərəksiz bitki, gərəksiz heyvan yoxdur. Hər şeyin həm xeyirli, həm də zərərli cəhətləri var".

*Kitabxanada ədibin "Sehrli pillələr" kitabındakı "Çörək əhvalatı" hekayəsi ətrafında uşaqlarla söhbət aparmaq olar. İlk öncə kitabxanaçı hekayəni uşaqlara oxuyur.*

Dürdanə saatlarla atasının yazı masasının qabağında durub baxırdı. Masanın üstündə nələr yoxdu...

"Dürdanənin atası eyvanda məhəccərə bağladığı uzun yeşiklərin, dibçəklərin içərisində gül əvəzinə sünbül bəslərdi. Burada cürbəcür sünbüllər olardı: açıq sarı, qızılı, uzun qılçıqlı, iri dənli, sısqa dənli. Ata hey bu dibçəklərin, yeşiklərin başına dolanar, kəhrəba kimi sarı dənləri nəlbəkinin içinə töküb baxardı.

Dürdanə bir gün dedi:

Bu nədir?! Dibçəkdə gül əkərlər. Evimizdə hara baxırsan sünbüldür, adamın ürəyi darıxır...

Sonda hekayəni dinləyən uşaqlarla keçirilən sual-cavab gecəsində aktivliyi ilə fərqlənən oxucu müdiriyyət tərəfindən mükafatlandırılır.

Orta yaşlı oxucularla Əleviyyə Babayevanın əsərləri üzrə **"Ədəbiyyatımızın pərvanəsi"** adlı **ədəbi oyun** da keçirmək məqsədəuyğundur. Belə oyunu keçirmək üçün kitabxanaçılar oxucularına yazıçının orta yaşlı oxucular üçün yazdığı əsərləri oxumalarını tövsiyə etməlidir. Oyuna kitabxanaçılar əvvəlcədən hazırlaşmalı və kitablardan maraqlı qeydlər götürüb dəftərə qeyd etməlidirlər ki, aparıcı rolunu oynadıqda oxuculara veriləcək suallardan çətinlik çəkməsinlər.

Kitabxanaçı oyunu başlarkən yazıçı haqqında qısa məlumat verməli və "oxumusunuzsa cavab verin" sözü ilə oyuna başlamalıdır. Oyunda fəal iştirak edən oxucunu kitabla mükafatlandırmaq olar. Tədbir üçün sual və cavabları veririk:

Elədir, biz burada Qanlı gölün qayalıq sahilini uçurdacaq, o tərəfdə də Çətindərədədə Çardaxlı çayını kəməndə salacaq. Beləliklə Çardaxlı dənizi yaranacaq.

**Sual:** Bu sətirlər yazıçının hansı povestindən götürülmüşdür?

**Cavab:** "Mən tək deyiləm povesti"ndən

"Ay pipiyi qan,
Gözləri mərcan.
Boyuna qurban,
Bacadan boylan
Baban desin can!

**Sual:** Bu şeir parçası yazıçının hansı hekayəsində verilmişdir?

**Cavab:**"Sehrli pillələr" hekayəsində.

**Sual:** Yazıçının doğma şəhərimizin kiçik bir məhəlləsində yaşayan uşaqların həyatından bəhs edən hansı əsərini tanıyırsınız?

**Cavab:** "Yenə bahardı" əsərini.

**Sual:** “Eh, Abbas Mirzəyevin evini ötmüşəm!”. Sətirlər yazıçının hansı povestindədir?
**Cavab:** “Məni tanımırsız?” povestindəndir.
**Sual:** Yazıçının “Açar”, “Məni tanımırsız” povestləri hansı kitabında verilmişdir?
**Cavab:** “Məni tanımırsız” kitabında.

Qara bax, qara
Gör necə yağır:
Çıxsan bayıra,
Məni də çağır.

**Sual:** Bu şeir yazıçının hansı povestindən götürülmüşdür?
**Cavab:** “Anar” povestindən.

Sualları artırmaq da olar.

Şübhəsiz hər bir uşaq kitabxanasında fəal oxucu qrupları vardır. Həmin oxuculara yazıçının hər hansı kitabına mülahizə yazmalarını tapşırmaq olar. Məsələn: Kitabxanaçılar oxucularına “Səni axtarıram” əsərini oxumağı və mülahizə yazmalarını tövsiyə edə bilərlər. Həmin əsərin müzakirəsini keçirərkən yaxşı olar ki, hər kitabın arasına bir, iki sual yazılmış əlfəcin qoyulsun. Əlfəcinə aşağıdakı sualları yazmaq olar:

1) Romanın əsas ideyası nədir?
2) Romanın mövzusu haradan götürülmüşdür?
3) Yazıçı əsərdə hansı mühüm məsələyə toxunmuşdur?
4) Əsərdə təsvir olunan adamlar kimlərdir?
5) Yazıçının daha hansı əsərinin müzakirəsini keçirmək istərdin?

**Konfrans**

Kitabxanalarda yuxarı sinif şagirdlərinin iştirakı ilə "Ələviyyə Babayevanın yaradıcılığı müasir gəncliyin gözü ilə" adlı konfrans da təşkil etmək mümkündür. Konfransdan öncə onun proqramı tərtib olunmalı, konfransın keçiriləcəyi dəqiq vaxt müəyyən olunmalıdır. Proqramda konfransda çıxış edəcək qonaqların, ədəbiyyatşünasların və şagirdlərin adları, onların çıxış edəcəkləri mövzular, tədbirin keçiriləcəyi məkan və zaman qeyd olunur. Konfrans zamanı Ələviyyə Babayevanın yaradıcılığına yaxından bələd olan jurnalist, yazıçı və şairlərin çıxışları dinlənilir. Oxucu konfransının planını sizə təqdim edirik:

Konfransın əvvəlində iştirakçılara kitabxananın hazırladığı Ələviyyə Babayevadan bəhs edən slayd təqdim olunur.

1. Slayd: "İnsan qəlbini, mənəviyyatını əsərlərində işıqlandıran, sevilən nasir Ələviyyə Babayeva"

1. Giriş hissə (Ələviyyə Babayevanın həyat və yaradıcılığı haqqında məruzə)

2.Ələviyyə Babayevanın yaradıcılığı haqqında kitabxana rəhbərliyinin, jurnalist, yazıçı və ədəbiyyatçıların çıxışları.

3.Yuxarı sinif şagirdlərindən ibarət olan oxucuların Ələviyyə Babayevanın müxtəlif əsərləri ətrafında məruzələri.

4. Konfransın yekunu.

**Kitabxanaçı:** Ələviyyə xanım 63-dən çox kitabın müəllifidir. Hekayə və povestlərindən ibarət olan bu nəsr nümunələrinin içində 9 roman yer tutur. Görkəmli alimlər, tənqidçilər, oxucular, hətta həmkarları

birmənalı olaraq vurğulayıblar ki, əgər Ələviyyə Babayeva heç bir əsər yazmasaydı belə, “Adamlar və talelər” romanı ilə Azərbaycan ədəbiyyatı tarixində iz qoymuş olardı. Əsərləri yenidən çap edilən Ələviyyə Babayevanın üç romanı haqqında mütləq danışmaq lazımdır. 1996-cı ildə işıq üzü görmüş “Bəlkə sabah olmadı”, 1998-ci ildə oxuculara təqdim olunan “Dəli Sona”, 2000-ci ildə çap edilmiş “Son döngə” romanları Azərbaycan nəsrinə yeni nəfəs gətirdi. Hətta 2000-ci ildə çap olunmuş “Rəngbərəng yuxular” povesti də bu sırada özünün layiqli yerini tutdu.Ələviyyə xanımın yaradıcılığı ilə bağlı sözü məruzəçilərə veririk.

**I məruzəçi: “Bəlkə sabah olmadı”.** Bu, Ələviyyə Babayevanın həm Azərbaycanda, həm də xarici ölkələrdə çap edilən məşhur romanının adıdır. Bu xiffət dolu sualın ahəngində qəribə bir niskil, daha doğrusu, giley duyulur. Ömrünü ictimai həyata, ədəbiyyata, yaradıcılığa, bədii tərcüməyə bağlayan Ələviyyə Babayeva Azərbaycanın müstəqillik dövründə də qələmini yerə qoymamış, çox dəyərli indiki dövrlə səslənən əsərlər yazmışdır.

**II məruzəçi:** Onun 1985-ci ildə işıq üzü görmüş **“Səni axtarıram”** kitabı da quruluşun ağ yalanlarının gözünün içinə həqiqəti söyləmək baxımından çox cəsarətli bir addım idi. Tənqidçi Qulu Xəlilov bu əsəri “həqiqətən yüksək vüsətli roman” adlandırmışdı. Jurnalistlərin, mətbuat işçilərinin həyatından bəhs edən bu əsər haqqında Ələviyyə Babayeva vaxtilə belə söyləmişdi: “Mən jurnalist peşəsinin nə qədər çətin, nə qədər keşməkeşli və nə qədər gərəkli, jurnalist adlanan adamların insanın səadəti, ədalətin bərqərar olması uğrunda mübarizə edən, bu yolda

bəzən hətta səadətini itirən mərd qəhrəmanlar olduğunu qələmə almışam”. Müəllif bu əsərində çox haqlı olaraq jurnalistləri “qızılaxtaranlar” adlandırıb. Özü bu kəlmənin mahiyyətini belə açır: “Qızılaxtaranların həyatı dağlarda, düzlərdə, məhrumiyyətlər qaynağında keçir. Ən adi rahatlığa - yumşaq yatağa, isti yeməyə çox vaxt həsrət qalırlar...”

**III məruzəçi:**Ötən əsrin 70-ci illərində Ələviyyə Babayevanın çapdan çıxmış **“Adamlar və talelər**” adlı kitabı ədəbi aləmdə böyük əks-səda doğurdu. İnsanların dəfələrlə oxuduğu, maraqla qarşıladığı bu kitab elə bir rəğbət qazandı ki, hətta bir neçə il təkrar nəşr olundu. Ələviyyə Babayeva bu romanında əhatəli yaradıcılıq imkanlarını aydın və pozulmaz bir möhürlə təsdiq edib. Qələmini çox dərinlərə işlədərək yazırdı: “Bizim çətin əsrimizdə ən çətini insan olmaqdır. İstər alim, istər sənətkar ol, istər xəstə baxıcısı ol, fərqi yoxdur. Əgər sən qürurla səslənən insan adına layiq deyilsənsə, heç bir şeysən!”

**IV məruzəçi: “Rəngbərəng yuxular”,** 2000-ci il, səh. 19. “Rəngbərəng yuxular” povestində müəllif keçdiyi enişli-yoxuşlu həyat yoluna nəzər salır, gördüyü, təmasda olduğu insanların, məşhur şairlərin, yazıçıların və ziyalıların onun yaradıcılığına böyük təsirini qeyd edir. Həmçinin o, insan mənəviyyatından, arzu və istəklərindən, ömrü boyu üzləşdiyi çətinliklərdən, maraqlı, həyatının bəzi təsirli məqamlarını yaddan çıxarmır. Ən böyük idealı ədalət, düzlük, vicdan təmizliyi olub. Əsərlərində həyat həqiqətinin gözlə görünməz düyünlərini açmağa cəhd edib. “Rəngbərəng yuxular” əsəri müəllifin yaşadığı mürəkkəb və faciəli epoxanın, zamanın tarixi-ədəbi

salnaməsidir. – desək yanılmarıq. Əsərin elə ilk səhifəsində yazıçının ədəbiyyata verdiyi qiymətin, ədəbiyyat haqqında söylədiyi mülahizələrin şahidi oluruq. “Ədəbiyyat, sənət elə bir halədir ki, bu haləyə düşən adam heç vaxt xilas ola bilmir. Bu yolla irəliləyənin bu yolda dönüklüyü yada düşmür”.

**V məruzəçi:** Müəllif Müşfiqi, H.Cavidi, Ə.Cavadı, S.Mümtazı xatırlarkən onların – bu sənət fədayilərinin başlarına gələn faciələrə, onlara atılan böhtanlara göz yuma bilmir. Onların və repressiya qurbanlarının həbsindən ürək ağrısı ilə yazır. Müəllif əsərində uşaqlıq illərini tez-tez xatırlayır. Hafizəsinin çox güclü olduğunu, Müşfiqin ona söylədiyi “Yalnız ağac” şeirini yaddaşına həkk edib təzədən şairə əzbər söylədiyini və onu heyrətləndirdiyini uşaq sevincilə yadına salır. Əsərdə Müşfiqlə yanaşı, onunla eyni vaxtada yaşayıb yaradan S.Vurğun da, H.Cavid də, S.Mümtaz da xatırlanır və sifarişlə onların əleyhinə məqalələr yazan mənəviyyatsız, vəzifəpərəst, xudbin alimlər ifşa olunurlar.

**VI məruzəçi:** Qarabağ müharibəsi başlayandan yazıçı tez-tez çadır şəhərciklərinə gedir, orda məskunlaşan qaçqınlarla görüşür, onların acınacaqlı həyat şəraitini təsvir edir, ermənilər tərəfindən gözünün qabağında öldürülən valideynlərini itirən, balaca Samirənin simasında Qarabağ müharibəsində əsir götürülən fidan balaların taleyinə acıyır. Povestdə müəllif yazır. “Mən çadır şəhərciyində yayın isti günlərində olmuşam. Gil torpaqda ot-ələf bitmir, mal, qoyun saxlamaq mümkün deyil. Su yoxdur, deyən, əkin, tikinti də yoxdur. Heç toyuq, cücə də o istiyə, susuzluğa davam gətirmir”. Belə çadırların birində əmisinin himayəsində yaşayan dili tutulmuş (erməni

separatçıları tərəfindən gözünün qabağında ata-anası öldürülərkən həyəcandan dili tutulur). Samirəni görür və ona xeyirxah insanların köməyi ilə yardım edir, qızın dili açılır. Müəllif bu balaca şair təbiətli qızı ikinci dəfə evində qarşılayır. Samirənin yazdığı yurd həsrətli, nisgilli şeirlərinə qulaq asır. Onu şəhərə-gəzməyə aparanda qızcığazın gözləri dənizə sataşır, heyrətlənir. Bu qədər də su olar? – soruşur. Çadır şəhərində suyun o qədər həsrətini çəkmişdi ki.

**VII məruzəçi:** Müəllif ikinci qəhrəmanından – şairə Lamiyədən söz açır. Onun soyuq çadırda yerdəcə əyilib şeir yazmağına acıyır. "İstedad fenomeninin yaxşı cücərti verməsi üçün münbit şərait, qayğı olmalıdır. Yoxsa dövranın dəli küləkləri bu çiçəkləri vaxtsız soldurarlar" – deyir. Şeirini dizi üstə qoyub kətil üzərində yazan, şair bala, görən, bu çoxmu çəkəcək. Sən havaxta kimi tövlə sakini olacaqsan. Müəllif ürək ağrısı ilə qaçqınların dözülməz həyat şəraitindən də ürək ağrısı ilə yazır.

**VIII məruzəçi:** Müəllifin "Rəngbərəng yuxular" əsərində rəngbərəng mövzulara müraciət edərək bəzən keçmişə qayıdır. Gördüyü, şahidi olduğu hadisələri yaddaşında çözələyir, ya da uzaq ölkələrə səfərlərindən danışır. Keçən əsrin otuzuncu illərində həbs olunan, uzaq Sibirə sürgün edilən insanların qaldıqları yerləri, meşələri, onların yaşadıqları soyuq konslagerləri görmək arzusunda olduğunu deyir. Ə.Babayeva yazır ki, o iki dəfə Sibirdə olub. H.Cavidin sürgün olduğu İrkutsk şəhərini ikiyə bölən Anqara çayının sahilində həmkarları ilə Cavidi yada salıb fikirləşir. Haqsız tökülən qan yerdə qalacaqmı. Inqilab bizə, Sibirə nə verdi. O vaxtlarda Sibir proqressiv, cəsarətli adamların katorqa yeri idi, sonralar da. Bu

meşələrdə ağac mişarlayan dustaqları qış yuxusundan oyanan ac ayılar hücum çəkib aparırdılar. “Rəngbərəng yuxular”. 2000. Səh 85 Müəllif ürək ağrısı ilə müsavat zabiti olmuş və elə buna görə də həbs edilib Sibirə sürgün olunmuş dayısının da belə bir faciə ilə üzləşdiyini xatırlayır.

Ələviyyə xanımın yaradıcılığına bir daha müraciət etmək, onun yaradıcılığını geniş oxucu kütləsinə sevdirmək üçün keçirilən tədbirlərdən biri də “**Zamanın tarixi-ədəbi salnaməsini yaradan yazıçı Ələviyyə Babayeva” adlı ədəbi-bədii gecədir.** Gecəyə bir ay əvvəldən hazırlaşmaq lazımdır. Tədbirə bir çox şair və yazıçılarla yanaşı ədəbiyyat müəllimlərini, kitabxanaçıları, tələbə və şagirdləri dəvət etmək olar. Tədbirin ədəbi hissəsi çıxış və məruzələrlə başlanır. Bədii hissədə isə Ələviyyə Babayevanın qələmə aldığı hekayələrdən, nağıllardan səhnəciklər göstərilir. Səhnə gül dəstələri ilə bəzədilir. Yazıçının portreti səhnənin divarından asılır. Gecəni kitabxanaçı açıb, ədibin həyat və fəaliyyəti haqqında qısa məlumat verir. Sonra isə söz aparıcılara verilir.

**Aparıcı:** Bu əlamətdar gün Ələviyyə Babayevanın yubileyinə həsr olunur. Ələviyyə xanımın qəhrəmanlarını biz dərhal tanıyırıq və qəbul edirik. Çünki onlar dünənimizin, bu günümüzün adamlarıdır. Ələviyyə Babayeva çox məhsuldar,istedadlı, təvazökar və cəfakeş yazıçıdır. Ömrünü ictimai həyata, ədəbiyyata, yaradıcılığa, bədii tərcüməyə bağlayan Ələviyyə Babayevanı həmkarlarından fərqləndirən çoxlu məziyyətləri var idi. Mərdanəliyi, cəsarəti, məhsuldarlığı öz yerində, bu xanım yazıçı ədəbiyyat döyüşündə kişilərlə çiyin-çiyinə işləyib. Yeri gələndə nöqsanı üzə deməyi bacarıb.

**Aparıcı:** Ələviyyə xanım cəmiyyətin ictimai-siyasi mənzərəsi ilə yanaşı, insan qəlbini, mənəviyyatını əsərlərində işıqlandırırdı və müasir dövrünün həqiqətlərini, reallığını doğru-dürüst əks etdirirdi. Geniş dünyagörüşlü, intellektual səviyyəli, ən başlıcası böyük ürək sahibi olan müəllif bilirdi ki, tarix və çağdaşlıq qırılmaz tellərlə bir-birinə bağlıdır. Biri digərsiz tamamlana bilməz.

**Aparıcı:** Ələviyyə xanım əsərlərində dönə-dönə deyirdi ki, hər bir yazıçı tariximizi, keçmişimizi mükəmməl bilməlidir. O, qələminin kölgəsinə sığınaraq elə əsərlərə imza atıb ki, bütün zamanlardan, sınaqlardan üzüağ və qalib çıxıb. Ona görə də, Ələviyyə xanım hər bir yazdığı romanı başlamamışdan əvvəl xalqımızın uzaq keçmişini arxivlərdən, tarixdən, yaddaşalardan, xatirələrdən və bu dövrü görmüş canlı şahidlərdən öyrənirdi.

**Aparıcı:** Son illərdə ədibin çap olunmuş əsərləri belə deməyə əsas verir ki, müəllif müasir dövrdə yaradan, quran adamlarla təmasda olmuşdur. Insanların taleyinə yaxınlıq və doğmalıq, yeni xarakterli, yeni keyfiyyətli sürətlər axtarıb tapmaq, müasirlərimizin, xüsusilə ziyalılarımızın əhvali-ruhiyyəsindəki aparıcı cizgiləri, onları narahat edən məsələləri ön plana çəkmək onun yaradıcılığı üçün səciyyəvidir. Müəllif əsərlərində müxtəlif taleyli adamları, onların daxili aləmini, hiss və həyəcanlarını, yaşam tərzini çox inandırıcı şəkildə oxucuya çatdırır. Onun əsərlərinin sujet xətti cəmiyyətin saflaşmasına, haqqın qələbəsinə, insanların mənəvi təmizliyinə xidmət edir.

**Aparıcı:**Ədəbiyyatımızın görkəmli nümayəndələrindən biri olan Əleviyyə Babayeva sovet dönəmində təkcə Azərbaycanda deyil, müttəfiq respublikalarda da yaxşı tanınırdı və sevilirdi. Kitabları bir neçə xarici ölkədə çap edilmişdi.Əleviyyə xanım ali keyfiyyətləri, müsbət xüsusiyyətləri, geniş dünyagörüşü, yüksək intellektual səviyyəsi, ən başlıcası, böyük ürək sahibi olan bir insan idi. Əleviyyə xanımın əsərlərindəki yüksəklik, sivillik də elə buradan gəlirdi. Özü və sözü bütöv olan yazıçının əsərləri birnəfəsə oxunur.

**Aparıcı:** Təkcə bədii yaradıcılıqla deyil, uzun illər tərcümə ilə, naşirliklə, jurnalistika ilə məşğul olmuş bu mərd xanımın qayğı və xiffətlə söylədiyi xatirələrin birində diqqətiçəkən məqama fikir verək: Neçə il öncə ümummilli lider Heydər Əliyev ona Prezident təqaüdü verib. Əleviyyə xanım öz xatirələrində qeyd edir: ”Heydər Əliyev mənim yaradıcılığımı, mərdliyimi, cəsarətimi qiymətləndirirdi. O, həm də əsərlərimi oxuyurdu və bəyənirdi. Heydər Əliyev Azərbaycan yazıçılarını çox yaxşı tanıyırdı”.

**Aparıcı:** Bu etiraf çox dəyərlərdən və mətləblərdən xəbər verir. Həm ümummilli liderin Azərbaycan ədəbiyyatına olan diqqətindən, himayəsindən, həm də qayğıdan fərəhlənən qələm sahiblərinin qədirbilənliyindən. Müəllif müsahibələrinin birində demişdir ki, romançı öz dövrünün sadəcə müşahidəçisidirsə - bu çox azdır. O, həyatın burulğanından keçən yaşadığı zamanın tədqiqatçısı və güzgüsü olmalıdır. Əleviyyə Babayevanın əsərləri ona görə yüksəkdə dayanır ki, onun özünün şəxsiyyəti də, səviyyəsi də, dünya görüşü də çox yüksək idi.

**Aparıcı:** Ondakı yüksək intellektuallıq Şərq və eyni zamanda Qərb ədəbiyyatını çox mükəmməl bilməsi ilə əlaqədar idi. Elə ona görə də çap olunan hər bir yeni əsəri oxucuda maraq doğurur. Müəllif yazılarının birində yazıçı olmağın həm çətin, həm də şərəfli olduğunu qeyd edərək ədəbi mühitin yaradıcılığa təsirindən yan ötmədiyini də deyir: "Ədəbi mühit istedadın fikirlərinin istiqamətini dəyişə bilər, yolunu əyə bilər, ancaq yaradıcılığına meydan aça bilməz. Çünki burda hər kəs öz yükünü özü çəkməlidir".

**Aparıcı:**Ələviyyə xanımın yaradıcılıq yoluna nəzər saldıqda onun əsər üzərində nə qədər səbr, təmkinlə işləməsinə heyran olursan. Kiçik yaşlılar və məktəblilər üçün yazdığı "Mənim müəllimim", "Kənd yolları", "Payızda", "Yenə bahardı", "Sehirli pillələr" kimi hekayə kitabları Ələviyyə xanıma şöhrət qazandırmışdır. Bu əsərlər balaca oxucuların çox böyük rəğbətini qazanmışdır.

**Aparıcı**:Ə.Babayeva uşaq ədəbiyyatına böyük ehtiyac olduğunu hiss etdiyindən yaradıcılığını bu istiqamətə də yönəltmiş, həm orijinal hekayələri, povestləri, nağılları ilə, həm də tərcümələri ilə bu sahədəki boşluğu doldurmağa çalışmışdır. Ə.Babayevanın yaxşı, tərbiyəvi xarakter daşıyan hekayələri çoxdur.Bu əsərlərin balaca qəhrəmanlarının hərəkətləri, davranışlarının təsviri göstərir ki, Ə.Babayeva uşaq dünyasına yaxından bələddir, onların psixologiyasından xəbərdardır. Bu baxımdan yazıçının "Sehrli pillələr", "Çörəkli yer", "Süsən sünbül", "Sən Laləyə oxşama", "Böyürtkən mürəbbəsi", "Çörək əhvalatı" hekayələri uğurlu hesab olunur. Onun

nağılları öz yığcamlığı, dərin ictimai mənası, tərbiyəvi əhəmiyyəti ilə diqqəti cəlb edir.

**Aparıcı:**Onun uşaqlar üçün yazdığı hekayələrində xalqlar dostluğu, uşaqların yüksək təhsil uğrunda mübarizəsi, səmimi yoldaşlıq mövzuları əsas yer tutur. Bu əsərlərdə sırf nəsihətçiliyə, quru didaktizmə rast gəlmirik. Əxlaqi nəticə təsvir olunan hadisələrlə üzvü surətdə bağlı olur. Təsvir boyu yazıçı ibrətli nəticələr üçün zəmin hazırlayır. Yazıçını düşündürən tərbiyəvi problemlər bunlardır: əməyə məhəbbət, böyüklərə hörmət, hər şeyi tez öyrənmək həvəsi, oyuncaqlarla rəftar. Bu hekayələrdə qoyulan məsələlərin bədii həlli göstərir ki, yazıçı uşaq psixologiyasına dərindən bələddir.

**Aparıcı:**Əsərlərini kiçik və orta yaşlılara həsr edən Ələviyyə xanım sonralar gənclər, böyüklər üçün əsərlər yazaraq onlara "Adamlar və talelər", "Haradasan dost, harda", "Səni axtarıram", "Küləyin tərkində", "Yanar su" və s. adlar verdi. Ələviyyə xanım orijinal əsərlər yazmaqla bərabər, tərcüməçiliklə də məşğul olmuşdur. A. Qaydarın "Uzaq ölkələr", V.Biankinin "İz ilə", "Ayı balası", "Qırmızı təpə", K. Paustovskinin "ğru pişik", V. Q. Korolenkonun "Satın alınmış uşaqlar", Y. Satkinin "Əcaib quş" və bir çox başqa əsərləri Azərbaycan dilinə tərcümə etmişdir.

**Aparıcı:** Ələviyyə Babayevanın Tehranda "Haradasan dost, harda", Çində "İnsanlar və talelər" romanları, Yaponiya, Türkiyə və başqa ölkələrdə çap olunan hekayələri nəinki müəllif üçün, həm də Azərbaycan ədəbiyyatı üçün fərəhli hadisədir. Müəllifin əsərləri hər şeydən əvvəl oxucunu düşündürür və zənginləşdirir.

Geniş oxucu kütləsinə onu sevdirən və onun zəngin həyata və güclü istedada malik olmasıdır.
Aparıcı: Artıq bir ildir Respublikanın Əməkdar Mədəniyyət işçisi, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, sevimli yazıçı Ələviyyə Babayeva aramızda yoxdur. Artıq bir ildir ki, onun maraq dolu duzlu, şirin söhbətlərinin, ipək kimi yumşaq səsini eşitmirik. Hansısa bir müdrik deyib ki, qürurlu və həssas duyumlu insanların səsi çox vaxt özünə bənzəyir. Onun səsində bir məlahət, yanğı və xeyirxahlıq var idi. Onun səsində hər kəsi öz sehrində saxlaya biləcək bir cazibə var idi.
**Aparıcı:** Ələviyyə xanım 94 il yaşadı. Ulu Tanrı hər adama uzun ömür bəxş etmir. Ələviyyə xanımda olan xeyirxahlıq, haqqa və ədalətə inam onun əsərlərinə də köçmüşdür. Ona görə də böyük yazıçının hekayələrindən tutmuş romanlarına qədər bütün əsərləri sevilə-sevilə oxunur.

Əziz tədbir iştirakçıları! Beləliklə, bu gün biz Ələviyyə Babayevanın yaradıcılığına bir daha nəzər saldıq. Onun dərin məzmunlu, kamil üslubla yazılmış əsərlər ilə tanış olduq və bir daha əmin olduq ki, onun qələmindən çıxmış hər bir əsər nə qədər dəyərli və qiymətlidir. Ələviyyə xanım bizim gözümüzdə həmişə öz sözünü, möhürünü zamana vura bilən bir şəxsiyyət olaraq qalacaq.

Son

Ədəbiyyat siyahısı F.Köçərli adına RUK-nın biblioqrafiya şöbəsinin müdiri Sevil Əhmədovaya aiddir.

**Əsərləri**
**Latın qrafikası ilə**

**Cırtdan şəhərdən qaçıb.** - B. Turan, 2001. – 110 s.

***Kiril əlifbası ilə***
Seçilmiş əsərləri : İki cilddə **.I cild**. - Bakı : Azərnəşr, 1991. - 384 s.
Seçilmiş əsərləri : Iki cildə. **II cild** : Roman. - Bakı : Azərnəşr, 1991. - 335 s
Adamlar və talelər : Roman. - Bakı : Gənclik, 1979. - 432 s
Hardasan-dost, harada... : hekayələr və roman - Bakı : Gənclik, 1977. - 408, [3] s.
Hekayələr. - Bakı : Uşaqgəncnəşr, 1951. - 16 s.
Hörüklər : hekayə. - Bakı : Gənclik, 1968. - 6 s.
Kölgə : hekayələr. - Bakı : Azərnəşr, 1964. - 104, [1] s.
Küləyin tərkində : roman və hekayələr. - Bakı : Gənclik, 1983. - 355, [1] s. : şək.
Mən tək deyiləm : povestlər. - Bakı : Gənclik, 1969. - 191 s.
Mənim müəlliməm. - Bakı : Uşaqgəncnəşr, 1950. - 28 s.
Sehrli pillələr : hekayələr. - Bakı : Gənclik, 1974. - 166 s.
Səni axtarıram : roman. - Bakı : Yazıçı, 1985. - 380 s.
Süsən, Sünbül : hekayələr. - Bakı : Gənclik, 1968. - 100 s
Tut ağacı : hekayələr. - Bakı : Gənclik, 1967. - 95 s.
Yanar su : roman və povestlər. - Bakı : Gənclik, 1986.

- 352 s.
Yenə bahardı : povest . - Bakı : Azərnəşr, 1963. - 79 s.

***<u>Dövri mətbuatda</u>***

Rəssam Rasim haqqında sözlərim : rəssam Rasim Babayev haqqında // Ədəbiyyat qəzeti. - 2008. - 8 avqust. - S. 3.
Eşşək // Göyərçin. - 2008. - № 12. - S. 8-9.
Sən Laləyə oxşama // Savalan. - 2009. - avqust. - S. 5.
Vaxt qızıldan qiymətlidir : hekayə // Göyərçin. - 2012. - **№ 1**. - S. 14.
Sən Laləyə oxşama : hekayə // Savalan. - 2013. - 30 aprel. - **№ 29**. - S. 8.

**HAQQINDA**
Ələviyyə Babayeva : nekroloq // Ədəbiyyat qəzeti. - 2014. - 26 sentyabr. - № 37. - S. 16.
Ələviyyə Babayeva - 90 / Azərbaycan Yazıçılar Birliyi // Ədəbiyyat qəzeti. - 2011. - 19 avqust. - № 31. - S. 5.
Fərəcov Ç. Bəlkə sabah olmadı... // Azərbaycan : qəzet. - 2015. -23 sentyabr. - № 208. - S. 6.
Hüseynoğlu S. Rəngli yuxular boyunca : Ələviyyə Babayeva - 90 // Ədəbiyyat qəzeti. - 2011. - 19 avqust. - № 31. - S. 5.
Xəlilzadə F. Qəhrəmanlarına bənzəyən yazıçı : Ələviyyə Babayeva haqqında // Kaspi. - 2014. - 27 sentyabr. - № 158. - S. 18.
Xəlilzadə F. Sabah mütləq olacaq : Ələviyyə Babayeva - 90 // Azərbaycan. - 2011. - 11 avqust. - № 175. - S. 5.

**“Zərif duyğuların tədqiqatçısı Ələviyyə Babayeva” Ələviyyə Babayevanın 95 illik yubileyi münasibəti ilə respublika uşaq kitabxanaları üçün hazırlanmış metodik vəsait**

**Kompyuter yığımı**
**və dizayn:** ***Ruhiyyə Məmmədli***

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
URL:www.clb.az

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş:
Çapa imzalanmışdır:
Tirajı:
Pulsuz